BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2009

# RƏSUL RZANIN POEMALARINDA LİRİK RİCƏTLƏR

**S.M.MƏRDANOVA**
*Bakı Dövlət Universiteti*
**Samira-mardanova@rambler.ru**

Rəsul Rza Azərbaycan ədəbiyyatında sərbəst vəznli şeirin böyük ustadı idi, bununla belə, heca vəznli gözəl şeirləri də var idi. Rəsul Rzanı bir şair kimi fərqləndirən cəhətlərdən biri də onda idi ki, onun poetik əsərlərində məna tutumu olmayan bir dənə də boş misra yoxdur; qafiyə düz gəlsin deyə, məna əlaqəsi düz gəldi-gəlmədi, nəsə uydurmaq cəhdi bu şairə yaddır. Şair şeirlərində də, poemalarında da bu keyfiyyəti qoruyub saxlamışdır. Rəsul Rzanın bir sıra şeirlərində satirik ruh da var. Ancaq bu satirik ruh lirik şeirə elə pərçimlənir ki, hər oxucu onu çətin başa düşə bilər.

Poema yaradıcılığı da şairin sənətində xüsusi yer tutur. Bizim fikrimizcə, Rəsul Rzanın hamısı yaxşı olan poemaları içərisində iki poeması xüsusilə seçilir: «Qızılgül olmayaydı» və «Lenin» poemaları. Hansı adla və hansı mövzuda yazılmasından asılı olmayaraq, hər iki poemada vətəndaşlıq mövqeyi, hümanizm, insan taleyi haqqında düşüncələrin poetik tərənnümü var. Poemalarda özünü göstərən lirik ricətlər də bu hisslərin ifadəsidir.

Şair «Lenin» poemasının əvvəlində proloq səciyyəli «Giriş» verir – lirik giriş. Poemanı yaratmaq üçün keçirdiyi poetik düşüncələri qələmə alır; bu böyük işə girişməsi üçün çəkdiyi hissi-psixoloji anları nəzərdən keçirir və bu düşüncələr içində ricət edir.

Yüz il ömrün qış keçincə,
bir gün olsun!
Bahar olsun!...
Fırtınalı!
İldırımlı!
Gurultulu!
Hər zərbəsi qüdrət dolu!
Hər parçası həyat dolu,
bahar kimi, lalələrdən
Vüsət versin gündüzlərə.
Təbi sönmuş rəssam kimi
bir boz rəngə vurulmasın.
Bahar kimi vəcdə gəlsin,
yaratmaqdan yorulmasın.

Bundan sonra şair insan haqqında fikirlərini deyir. İnsanlar cürbəcür olur; heç şeyə yaramayan insanlar, həyatı hadisələrlə, mübarizələrlə dolu insanlar. Şair burada bir keçid edir, soyuq Sibiri təsvirə başlayır:

«Nə sonsuzdur bu Sibirdə səltənəti qarın, buzun!» - deyir; bu yeri «Fəryadları boğan diyar», «Tufanların cövlangahi» adları ilə çağırır; deyir ki, «Burda insan bel bağlasa təvəkkülə, yol üstündə donub düşər bir daş kimi». Burada lirik haşiyə çıxır:

Lakin insan tez məhv olar,
donar beyni, donar əti,
sinəsini qızdırmasa
öz qəlbinin hərarəti.
Könlündəki ümid əğər
alışmasa ocaq kimi...
Azadlığın alovuyla alışmasa,
sinəsində hər gün ürək.
Boyun əysə həyatın sərt tufanına...
Qaranlığa adət edib
taleyinə qane olsa.
Dinc dustaqlıq
mübarizə əzabına mane olsa,
beyni donar, qanı donar!
Ocağına kəfən kimi ağ kül qonar.

Şair belələrini ritorik əmr cümlələri ilə fəaliyyətə, mübarizəyə çağırır; ümidə çağırır, «Bu şaxtalar arxasında şəfəqli bir səhər də var» - deyir, bir də deyir ki, «Bir gün yarıb tufanları gələr bahar». Yəni azadlığa, gələcəyə inamla baxmağı təlqin edir; yəni bu işgəncələr uzun gedə bilməz. Bəli, şair Sibirin şaxtalı günlərində bir hənirti duyur, əzablı günlərdə bir isti nəfəs duyur. Gəlib keçən illərdən, günlərdən danışır və elə buradaca xəyal onu aparır; illər, günlər haqqında mühakimə yürüdür və düşünür ki:

İllərin yarpaq kimi
bir-birinə bənzəyən
müxtəlif günləri var.
Ömür ipək kələf deyil,
açılmayan düyünlər var.

Bu ricət işığında şair təbiətin zaman fonunda axarına baxır: «Həftələr, aylar keçir axşamlı, səhərli. Bəzən şirin, bəzən zəhərli ». Bəs günlər haqqında nə demək olar; şair günlər haqqında nə düşünür. Budur günlərin ricət formasında lirik ifadəsi:

Günlər də insan kimidir,
tutqunu var, güləri var.
Ömrün bir-birinə bənzəməyən
müxtəlif günləri var.
Gün var ki, dəqiqəsi
uzun əsrə bərabər.
Bu günün çeşməsindən
qaynayır qərinələr.
Gün var ki, almas olur,
Şəfəq salır illərə.
Gün var ki, əlac olur
Dərdlərə, müşküllərə.

Şair bir daha keçmiş Rusiyanın vəziyyətinə nəzər salır: «çətin dövrandı dövran, zaman ağır zamandı» - deyir; «İrtica hər tərəfə salmışdır kölgəsini. Döndərmişdi zindana Rodişşevin, Puşkinin, Gertsenin ölkəsini» - deyir. Şairin qələmində və həqiqətən də «Ölkə soyuq Baltikdən Sakit okeana qədər Saraylarda eyş-işrət; Daxmalarda qəm, kədər» hökm sürür. Şair bu keçməkeşli həyat içində dünyanın gərdişini görür və düşünür:

Ən ağır günlərin belə,
sadəcə əlacı var.
Qəlbin qüdrət dayağını
keçmişin qoynunda yox,
gələcək gündə axtar!
Səadətin kökü də
insan ürəyindədir;
bunu anlamayanlar
bir kölə, bir bəndədir.

Peterburqun payız günləri gəlirdi. Şair payız təbiəti ilə və ya təbiətin payız günləri ilə bu şəhərin canlı insan həyatının arasındakı həyatı əlaqələndirir; bir tərəfdə «Tamaşalar, şux baletlər. Kazinolar. Kef. Qumar», o biri tərəfdə «Böyük Piterin səsi. Piterin döyüşlərə çağıran nəğməsi». Beləliklə, «Peterburuq da ikidir. Biri zadəganların, başda oturanların, hər gün qan soranların; o biri minlərin, milyonların, zəhmətkeşlərindir». Poemanın «Sui-qəsd» hissəsində şair hadisələrin təsviri içində belə bir ricət edir:

İnsan bir gün doğulur,
bir gün öləcək, amma-
kədər bəndi, bərəni
kəsəndə, dörd tərəfdən
qəlbini yandırsa ah,
sən insanı danlama.

Hadisələrin fonunda bu ricət mənalı-məntiqli görünür, hekayəti tamamlayır. Poemada belə bir başlıq da var: «Appasionata». Burada təbiət və musiqi vəhdəti tərənnüm edilir. Axşamın qaranlığı düşmüş, piano səslənir. Bu səslər çox şey deyir. Burada «Appasionatanın aydın, gözəl səsləri; Ölməz bir sonatanın nadir, əzəl səsləri» gəlir; «Bu səslərdə insanın fikri, qüdrəti vardır». Beləliklə, şair pianodan gələn səslərə poetik mənalar verir, bu səslərin yaratdığı duyğulara toxunur; onları danışan ürəyin sədaları kimi qəbul edir və bir lirik ricət edir:

Geniş ürəkli insan,
cəsur, inadlı insan
bu zaman hekayətin
Canlı qəhrəmanıdır
Alovlu iz buraxan
bu ölməz təranələr
əsarətə, zülmətə,
insan iztirabına,
köləliyə, zillətə
bir ölüm fərmanıdır.

Şair bu səslərin tərənnümünü davam etdirir; bu «Səslər gah meh-

ribancasına bir ana laylası tək sığallayır, oxşayır; gah od kimi yandırır, bir qılınc kimi kəsir». Bu poetik təqdimat davam edir, səslər neçə tərəfdən, neçə cəhətdən mənalandırılır. Elə buradaca şairin sözə münasibətini görmək olur, söz seçimi qabiliyyətinə heyran olmaya bilmirsən.

Poemanın «Son görüş» hissəsinin başlanğıcından bir neçə misra belə ricət var:

Tərlan genişlik sevər.
Göylərdir onun yeri.
Qanad gərsin, dolaşsın
Sonsuz mavilikləri.

Bu ricət ətrafını qar basmış otaq darısqallığına əks hal kimi verilir: dar otaq-geniş aləm. Lakin ölümə doğru yol gödəlir və şairin harayı eşidilir.

Yolun yomrulsun, ölüm!
Al qana döndü könlüm.
Ölümsüz bir varlığı
Öldürmək olarmı heç?

Şair, Leninin ölümünü nəzərdə tutaraq, «Dayandı böyük bir qəlb, əzəmətli bir beyin», - deyib hökm edir:

Qara geyin!
Matəmdir! Ey dünya! Qara geyin!

Müəllif bu ölümü yola salan böyük bir qəm karvanı görür. Üzlərdə kədər, göylərdə göz yaşları, ürəklər yanır. Bu kədərdən kənarda qalan yoxdur. Qoca qarı da, yaşı ötmüş kişilər də, kəndli də, fəhlə də, uşaq da, böyük də, dinli də, dinsiz də soyuq qar altında məzar yolları ilə irəliləyir. Nəhayət, vida anı gəlir. Qızıl meydan yüz minlərlə adamı qoynuna almışdır, onlar matəm mərasiminə yığışmışlar – ağlayan kim, dərdi içində bölən kim, dərd əlindən göz yaşı quruyan kim? Bu mənzərəni görən şair üçün qəribə görüntü açılır; «Mən hönkürüb ağlayan görmüşdüm insanları», - deyir və təəccübünü bildirir:

Qəlbə axan göz yaşı
daha yaman olurmuş.
Varmış insan ömrünün
elə mühdiş anları.
Yumruq boyda ürəyin
dərdi library ümman olurmuş.

Burada poemanın ricət kimi səslənən «Mən hansı bir insana bənzədim ki» sözləri ilə başlayan hissəsi gəlir. Məqaləni poemanın axıra yaxın hissəsində yer tutan bir lirik ricətlə sona çatdırmaq istəyirik.

Meşələrin dalında
batan günəş lalədir.
Buluddan axan şəfəq
alovlu şəlalədir...

**ƏDƏBİYYAT**

1. Rəsul Rza. Seçilmiş əsərləri. 5 clddə. V c., Bakı: Yazıçı, 1983, 220 s.
2. Rəsul Rza. Duyğuların izi ilə. Bakı: Yazıçı, 1990, 456 s.

## ЛИРИЧЕСКИЕ ОТСТУПЛЕНИЯ В ПОЭМАХ РАСУЛА РЗЫ

С.М.МАРДАНОВА

### РЕЗЮМЕ

Видный азербайджанский поэт Расул Рза является автором ряда поэм. В настоящей статье говорится о лирических отступлениях в одной из его поэм. Как и в других поэмах Расула Рзы подобные отступления используются и в его поэме «Ленин». В данной поэме на фоне эпического изображения событий по мере надобности даются лирические оступления. Эти отступления используются как для умозаключения, обобщения мысли со стороны поэта, так и для увеличения художественного простора поэмы. Лирические отступления в поэме, будучи во многих случаях образными, сопровождаются мудрыми мыслями. Они имеют также воспитательное значение.

## LYRICAL DIGRESSIONS IN THE POEMS OF RASUL RZAH

S.M.MARDANOVA

### SUMMARY

The great poet Rasul Rzah is the author of a number of poems. The article deals with the lyrical digressions in one of his poems. As in Rasul Rzah's other poems one can meet such kinds of digressions in the poem of "Lenin". Lyrical digressions are given on the background of the epic expressions of events in this poem. These digressions are used for the deduction to generalize the poet's views and also to increase the artistic scope of the poem. Lyrical digressions in the poem, being in most cases figurative elements are accompanied by some wise thought. They also have moral values.